# DƏYƏR ANLAYIŞININ KULTUROLOJİ TƏHLİLİ

Bəs bu anlayışlar konkret olaraq hansı mahiyyətə malikdirlər, aralarınakı vəhdət və ya fərq nədən ibarətdir? Bu sualı aydınlaşdırmaq üçün "mədəni dəyər" anlayışının təhlili daha zəruridir. Çünki bir ifadə yuxarıda adlarını qeyd etdiyimiz digər məfhumları özündə cəm edir. "Mədəni dəyər" anlayışı öz əhatə dairəsinə görə geniş olmaqla, həm mənəvi və həm də maddi sərvətləri birləşdirir. Bu halda Azərbaycan Respublikasının "Mədəniyyət haqqında Qanunu"nun (6 fevral 1998-ci il) VI fəslində deyilir: "Mənəvi və estetik ideallar, normalar və davranış qaydaları, dillər, dialektlər, ləhcələr, milli və etnik ənənələr, adətlər, tarixi toponimlər, folklor, tətbiqi xalq sənətləri, mədəniyyət və incəsənət əsərləri, mədəniyyət fəaliyyətinin elmi tədqiqatının nəticələri, metodları, tarixi və mədəni əhəmiyyəti olan binalar. Tikililər, binalar tarix və mədəniyyət baxımından unikal ərazilər və obyektlər mədəniyyət sərvətləridir".

Əsas normativ - hüquqi akt hesab olunan bu sənəddən çıxış edərək mədəni dəyərlərin daha geniş şəkildə təsnifatına aşağındakılar daxildir:

- təsviri sənət əsərləri, o cümlədən lövhələr, şəkillər, rəsmlər, qravüralar, estamplar, litoqrafiyalar, naxışlar, heykəltəraşlıq əsərləri, orijinal bədii toplular və montajlar;
- kino, xüsusi əhəmiyyətli televiziya, radio, video materialları, fotoəsərlər, fotomateriallar, dizayn işləmələri, memarlıq layihələri;
- əlyazmalar, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, dövrü mətbuat materialları, avtoqraflar, markalar, açıqcalar, mədəniyyət və tarix profili arxivlər, arxiv sənədləri, not yazıları, məktublar, elmi-tarixi yadigarlar, nadir nəşrlər;
- tətbiqi - sənət əsərləri - xalılar və xalça məmulatları, qızıl, platin, gümüş, qiymətli daşlar, mis və gildən hazırlanmış əşyalar, geramika məmulatı;
- səhnə və ekran ədəbi əsərləri, dekorlar, butaforiya və rekvizitləri, şifahi xalq yaradıcılığı nümunələri;
- qədim nadir kollekiyalar, 30 ildən çox tarixi olan muzey əhəmyyətli əşyalar (o cümlədən, mebel, musiqi alətləri və s.);
- arxeoloji komplekslər, arxeoloji və numizmatik xarakterli əşyalar;
- memarlıq abidələri, tikili nümunələri, xatirə yerləri və məqbərələri;
- park və təbii landşaft obyektləri;
- flora və fauna, mineralogiya, anatomiya nümunləri və palontologiya baxımından maraqlı əşyalar.

Bu siyahıya əlavə kimi, bir məqama da diqqət vermək lazımdır ki, mədəni dəyərlərə təkcə qeydiyyata alınan obyektər deyil, habelə qeydiyyata alınmayan müasir yerlər, tikili kompleks və ya binalar, ansambllar da daxildir. Bütün bunlardan sonra "mədəni dəyər" anlayışı üçün aşağıdakı tərif daha məqsədəuyğun hesab edilə bilər. Beləliklə, hər bir xalqın mədəni irsi üçün böyük əhəmiyyətə malik olan dini və ya dünyəvi memarlıq, incəsənət abidələri, yaxud tarixi abidələr, arxeoloji qazıntı yerləri, tarixi, yaxud bədii əhəmiyyət kəsb edən memarlıq ansamblları, incəsənət əsərlərinin əlyazmaları, kitablar, bədii, tarixi, yaxud arxeoloji əhəmiyyətli digər əşyalar, elmi kolleksiyalar və ya mühüm kitab və ya arxiv materialları, bir sözlə, daşınar və ya daşınmaz sərvətlər "mədəni dəyər" adının daşıyıcısıdır.

Mədəni dəyərin özü bir obyekt kimi öz təzahür formasına görə iki növə - maddi və mənəvi dəyərlərə bölünür. Bu anlayışlar arasındakı özünəməxsusluğu ifadə üçün "maddi", "mənəvi" məfhumlarının məzmununu nəzərdən keçirtmək zəruridir. İlk növbədə, buradakı ilkin fərqi maddi və mənəvi dəyərlərin istehsal xarakteri ilə izahından başlamaq lazımdır. Belə ki, maddi dəyərlər insanın maddi-istehsal fəaliyyətinin bütün sahələrini (yaşayış, gündəlik məişət əşyaları, geyim, nəqliyyat vasitələri və s.) əhatə edirsə, mənəvi dəyərlər isə, elm, mənəviyyat, tərbiyə, tarif, hüquq fəlsəfə, incəsənət, ədəbiyyat, folklor, din və s. məhsulu kmi dəyərləndirilir.

Dəyərlərin maddi və ya mənəvi növlərə bölünməsi bəzən dəqiq və mübarizəsiz təsəvvür edilir. Lakin məsələrə diqqətlə yanaşdıqda bir sıra sualların ortalığa çıxdığının şahidi oluruq. Məsələn, yüksək bədii məzmun və dəyərli məişət əşyaları: memarlıq və geyim nümunələrini hansı növə aid etməli? Və ya istehsal münasibətləri, əmək mədəniyyətini hansı növə aid etmək düzgün olardı? Maddi və ya mənəvi dəyərlərə? Bir çox tədqiqatlar onu maddi dəyərlər sistemine aid etdiyi halda, digərləri məsələyə başqa aspektdən yanaşmışlar. Bunu tədqiqatçılar insan əməyi nəticəsində təbiətin yaradıcı surətdə əşyavi məhsula çevrilməsi ilə edirlər ki, burada da mənəvi olanın, yəni şüurun, əqlin maddi substansiyaya çevrilməsi özünü təzahür etdirir. Deməli, əslində, maddi və ya mənəvi dəyərlər kimi qiymətləndirdiyimiz anlayışlar bir-birindən mahiyyətcə ayrılmazdır. Belə ki, mahiyyət etibarilə biri digərini tamamlayır. Məsələn, kitab-bir tərəfdən maddi dəyər nümunəsidirsə, digər tərəfdən, o mənəvi sərvətin tərkib hissəsidir, çünki o həm də ideya-estetik hiss, məzmun daşıyıcısıdır. Hətta musiqinin özü belə notlaşma prosesində maddiləşir. Başqa sözlə desək, nə qədər primitiv olsa belə, sırf "maddi dəyər", "mənəvi dəyər" anlayışı şərti səciyyə kəsb edir. Dəyərlərin maddi və mənəvi başlanğıcları haqqında marksist formulada çox aydın şərh vermir; "kütlələr tərəfindən mənimsənilən ideyalar maddi gücə çevrilir". Şərti olsa da, mənəvi dəyərlərin parametrləri mövcuddur.

Mənəvi dəyər əqli və bədii fəaliyyətin müxtəlif növləri ilə təzahür edir. Sözsüz ki, hər yaradıcılıq nümunəsini də mədəni dəyər kimi qiymətləndirmək düzgün olmazdı. Burada əsas meyar mədəni məhsulun ictimai əhəmiyyəti bədii-estetik zənginliyi ilə izah edilir. Məsələn, adi qabiliyyətsiz rəssam tərəfindən təsvir olunan tablo və ya rəsmi sənət dəyəri hesab etmək düzgün olmazdı. Ona görə də mədəni xəzinənin mənəvi dəyərlərini aşağıdakı parametrlərə görə qruplaşdırmaq daha məqsədə müvafiqdir; məzmun və vüsətinə görə, məzmuna görə mənəvi dəyərlər üç əsas sahədə - elm, mənəviyyat, əxlaq və incəsənətə ayrılır. Ona görə də bütün bunları nəzərə alaraq mənəvi dəyərlərin əsas tərkib hissələrini aşağıdakı təsnifat üzrə qruplaşdırmaq olar.

Elmi dəyərlər - milli və sinfi xüsusiyyətlər nəzərə alınmadan obyektiv insan biliklər sistemidir. Düzdür, sovet cəmiyyəti dövründə elmdə "burjua", "alan, böhtançı" elmi mülahizələr adı, altında fikirlər söylənilsə də sonra tarixin axarında aradan qaldırıldı. Bu məqalədə A.P.Çexovun bir fikri diqqətə layiqdir; "Milli elm yoxdur, əgər varsa da, o, elm deyildir. "Sadəcə olaraq dünya elm xəzinəsinə milli töhfələr aparıcı amillərdən birini təşkil edir ki, Azərbaycan elmşünaslığındakı nailiyyətlərin adını çəkmək olar.

Mənəvi - əxlaqi dəyərlər isə, cəmiyyətcə elmi dəyərlərdən fərqlənir. Əgər elmin vəzifəsi mövcud reallıqları insanlara öyrətmək, dərk etdirməkdirsə, mənəviyyatın vəzifəsi insanın digər insanlarla münasibətlərini aydınlaşdırmaq və təkmilləşdirməkdir. Bütün bunlar əxlaqi norma, adət və ənənələrdə, qanunlarda öz əksini tapır. Mənəvi dəyərlər çox zaman özünün təsviri təzahürünü ədəbiyyat, musiqi, təsviri sənət, habelə incəsənətin digər növlərində öz əksini tapır.

Bədii və sənət dəyərləri - bu sənət fəaliyyətin o sahəsidir ki, burada insanın bütün psixi-gücü hiss və əqli "çalışır". Hələ vaxtilə Kant söyləmişdi ki, incəsənət "maraq dairəsində olmayan zövqdür". Məhz bu cəhətinə görə incəsənət elm, əxlaq və mənəviyyatdan fərqlənir. İncəsənətin predmeti təkcə insanın zahiri aləmi, insanlarla münasibəti deyil, həmçinin şəxsiyyətin daxili aləmidir. Bədii dəyərlərin, yaradılması prosesində insan ilham və intuisiyaya tabe olur ki, elmi yaradıcılıqda bu bir o qədər də gərək deyil. Bədii dəyərlər daha irrasional etnik cəhətdən şərtləndirilmiş və öz yaradıcısı haqqında məlumat verən mədəniyyət sahəsidir.

> *Mədəniyyətşünaslıq elmində xalqın həyatı, məişəti, tarixi ilə bağlı bir sıra anlayışlar mövcuddur ki, bunlardan gündəlik ünsiyyət prosesində işlətdiklərimizdən biri də "sərvət", "dəyər", "abidə" və s. terminlərdir.Çox hallarda bu məfhumları eyni mənada işlədərək onlara "mədəni", "milli", "maddi", "mənəvi" anlayışlarını da əlavə etməklə "maddi dəyər", "milli dəyər" və ya sərvət", "mənəvi dəyər" ifadələrini yaradırıq.*

Elmi, bədii və mənəvi dəyərlərin qarşılıqlı vəhdəti və nisbəti həqiqət, xeyirxahlıq və gözəllikdə təzahür edərək həm cəmiyyət, həm də fərdlərin həyatında müstəsnalıq təşkil edir. Orteqa - i - Qassetin söylədiyi məşhur kəlam hər üç mənəvi dəyərin səciyyəsini izah edə bilir: "Elm - insan problemlərinin həllinin birinci pilləsi, əxlaq ikincisidir. İncəsənət isə, ən gizli və müqəddəs məqamlara çatmaq cəhdidir".

Mənəvi dəyərlərin yarılma dərəcələri öz təsnifatına görə ümumbəşəri, milli, infi-təbəqə, qrupp-lokal.

Ümumbəşəri dəyərlər - zaman - məkan çərçivəsində çoxsaylı insanlar tərəfindən qəbul edilməsi ilə xarakterizə olunur. Bu, qədim Misir mədəniyyəti, Fransa mədəniyyəti, Azərbaycan mədəniyyətinin incilərinin xalqlar tərəfindən dərkinə də aiddir. Burada dünya mədəniyyət inciləri, əxlaqın ən davamlı normaları böyüklərə, yaşlılara, qadınlara hörmət və məhəbbət, doğruculluq, təbiətə məhəbbət, qadın-kişi münasibətlərindəki səmimiyyət gözəlliyə cəhd və s. aiddir. Bir çox əxlaqi, mənəvi qanunlar dünya dinlərində də öz əksini tapır.

Milli dəyərlər isə hər bir xalqın və ayrıca götürülmüş şəxsin həyatında başlıca yer tutur. Ümumbəşəri dəyərlərdən fərqli olaraq milli dəyərlər daha konkret və maddiləşmiş formada olur. Məsələn, "Çənlibel" məkanından söhbət edərkən mütləq qəhrəman Koroğlu və Azərbaycanın tarixi keçmişi yada düşür. Yaxud "Qız qalamı" abidəsi Bakı şəhəri, Xəzər dənizi haqqında düşünməyə vadar edir. Buradan bir daha məlum olur ki, milli dəyərlər bu və ya digər xalqın mədəniyyətində təcəssüm tapan amillərdir.

Ümumiyyətlə, milli dəyərlər məsələsi bir sıra incə məqamlarla əlaqədardır. Qeyd etmək vacibdir ki, milli dəyərlər sinfi-təbəqə, lokal-qrup, fərdi-şəxsi dəyərlər, sistemindən ibarətdir.

Sinfi - təbəqə dəyərləri ayrı-ayrı sinif və ya sosial təbəqələrin maraqları ilə bağlıdır. Məsələn, sovet hakimiyyəti illərində "fəhlə və kəndli siniflərinin" dövləti hesab edilən keçmiş SSRİ-nin mədəniyyət və incəsənəti də məhz bu dövlətin adı ilə bağlı idi. Bu mədəni dəyərlər az davamlı hesab edilir.

Lokal - qrup dəyərlər isə - insanların yaşayış məkanına, yaşına, müvafiq qrupların birləşməsi nəticəsində birgə yaradılan dəyərlərdir. Bunlara, xüsusilə, müxtəlif tipli sekta, birlik, kasta və s. göstərmək olar. Dəyərlərin bu qrupu gənclər, yeniyetmələr arasında daha müstəsnalıq təşkil edir.

Cəmiyyətin əsas birlik forması kimi, ailə və onun dəyərləri də vacib şərtdir. Ailə dəyərlərinin nəsildən-nəslə ötürülməsi, bu mənada ən başlıca mədəni hadisələrdən birini təşkil edir.

Fərdi - şəxsi dəyərlərə isə konkret fərdin yaradıcılığı ilə bağlı dəyərlər toplusu aid edilir. Fərdi-şəxsi dəyərlərlə inkişaf edərək, təkmilləşərək geniş əhatəni və ya gənclik çağlarında bədii yaradıcılıqla məşğul olaraq bir sıra işlər həyata keçirilibsə, bu yalnız fərdi dəyər səviyyəsində öz yerini tutmuş olur.

Beləliklə, mədəni dəyərlər, onun əsas təsnifının (maddi, mənəvi, milli) təhlilindən belə bir ümumi nəticəyə gəlmək olar ki, bunlar iki başlıca xüsusiyyəti - nisbiliyi və mütəhərrikliyi ilə izah olunur. Belə ki, mədəni dəyərlərin nisbiliyi müxtəlif insan qruplarının həmin dəyərləri dərk etməsi və qiymətləndirilməsində təzahür tapırsa, mütəhərrikliyi onların ümumbəşəri səviyyəyə yüksəlməsində əksini tapır.

Milli-mədəni dəyərlərin yuxarıdakı kulturoloji təhlili bir məqama da diqqət yetirməyə imkan verir. İstər kulturologiya, istərsə də, muzeyşünaslıqda bu dəyərlərin "abidə" anlayışı ilə ifadə edilməsi məhsul hesab olunmuşdur. "Abir" anlayışı xatirə, bəzi ölkələrdə isə, "monument" terminləri ilə yaxınlıq təşkil edərək "yadetmə" mənasını verir ("monument" - latınca "monco" - yad edirəm" deməkdir).

Mədəni dəyərlərin "abidə" terminində təzahürü, ilk növbədə, onların muzey obyekti olması ilə izah edilir. Çünki mədəni dəyərlərin nəsildən-nəslə ötürülməsinin ən başlıca vasitələrindən biri "abidə" olmaqla muzey vasitəsilə həyata keçirilməsidir. Ona görə də geniş mənada "abidə" anlayışı mədəni dəyərlərin hamısına şamil edilir.

**Nərmin Məmmədova**

**İstifadə olunan ədəbiyyat siyahısı:**

1.Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu. B.: 2001.
2.Mədəniyyətin tarixi və nəzəriyyəsi. B.: "Təbib" 2006.
3.Mədəniyyət. Problemlər, perspektivlər. II hissə. B.: 2002.
4.Kulturologiya. B.: Mars - Print" 2003.
5.Muzeyşünaslıq (Dərslik): Rus dilində; B.: Mars-Print, 2002.
6.Арктановский С.Н. Некоторые проблемы теории культуры. Л. 1977.
7.Арнольдов А. Введение в культурологию. М.: 1998.
8.Введение в культурологию. М. 1995.
9.Гуревич. Культурология. Невосиб. М.: 1995.
10.Культурология. Краткий тематический словарь. Ростов - на - Дану, 2001.
11.Мамонтов С. Основы культурологи. М.: 1994.
12.Петрова. Теория культуры. Конспекты лекций. Санкт - Петербург, 2001.
13.Энциклопедический словарь по культурологи. М.: 1997.